

Həsən Akay

## NİL İNDİ

Xanımlar gəzişir
Başları üzərində rəsmlər
Və çiyinlərimdə
Balaca uşaqlarla

Alovun dilləri uzanıb yandırır qızları
Sifətlərində yanıq
Və ağrılı bir həzzin izi.

## NİL YAŞAYIR

Nil yaşayır,
Dumanın içində
Qahirənin qəhrini.

## AĞIR YÜK

Nil
Günəşin işığı ilə
Göylərin ağırlığını
Daşıyır çiyinlərində.

## NİLƏ SALAM

Salam olsun
Konqodan Afrikaya
Yağışı yerə çəkən ayın dağları
İnanılmaz sıx
Dumanlı dağ silsiləsi

Cazibəsi
Dəli edir buludları
O buzlar, o yosunlar, o palçıq
Kütlənin arasından süzülüb keçən
Zərif köpüklərin şeiri

Misirə doğru addımlayır taleyi
Dörd min illik yol
Viktoriya gölündən, Albert gölünə
Georgiadan Şimala burulan axın
Səhraya çatdığı zaman
Mavi qardaşı ilə görüşən çay
Sudan düzünə çatmamışdan öncə
Neçə yataq dəyişib
Dərələri, düzləri, səhraları arxasında qoyub
Nəhəng bir bataqlığın
Sinəsində rahatlanıb

Salam olsun
Yağmur dağlarını
Ərməğan edən Mısrı-ı Qədim səhrasına
Və qatı bulanıqlıqla axan ırmağa
Günəşin qızdırdığı bağçalarda
Qanadlanan su
Və bu an
Timsahlar ağır çəkimdə.

İşıqların ortasında
Ehtişamla görünən
Daşlar və quş ordusu

Ey Nili işığa bürüyən,
Yarpağı alovdan, qanadlı toxumlar
Tarixin başladığı nöqtədən paylanacaq gələcək zamana
Ruhumuzdan yuxarı incə bir ay qalır
Bədirlənmiş
Və tale
Darıxdığı üçün
Qaranlığı uzağa payına verib
Damlara tökülüb
Qurumuş çiçəklər.
Sükut hər şeyin üstünü örtdüyü üçün
Bircə səsin gücü ilə
Açılır qapılar.

Niyə salam olsun,
Salam olsun Nilə.

## SƏHRANIN XƏYALI

Sobanın yanından keçirik
Astaca
Yaşıllıqların içi ilə.

Qaşlar uzanıbdı, kirpiklər incə
Ayaqlar yerində dayana bilmir
Keçirib ağzına ayaqqabını
Gözəl bir dəvədir;
Qaçır
Qaçır
Dayana bilmir.

Bağçada əjdaha yarı yuxulu
Dili alovlu
Yandırır dünyanı, oyana bilmir.




## İSTANBUL - QAHİRƏ

Və uçuruq göy üzündə
Su kimi sonsuz şeirlərə baxırıq
Günəşi qucaqlayır şeirlər.

Ətrafını bürüyən
İşıq çağlayanları gülümsəyir.
Və törtöküntü bir dünyanın
Ucunda torpaq
Və qədim bir şəhər
Gül camalını qoyur qarşısına.

Uzaqlar əriyir
Sovrulub gedir zaman
Buludlar da alçalıb
Göy enir yerə, aman.

Və ağaclar içindən
Xeops zühur eləyir.
Diz çöküb kölgəsinə.
Eləcə dayanır,
Dayanır,
Dayanır.

## NİLDƏN UZAQDA QALANLARIN ŞƏRQİSİ

Nə zaman xatırlasam sevgili Nili
Ürəyim səbəbsiz kədər mənzili.
Hər tərəf gördüyüm quş xəyalları
Hər səs qulağımda bülbülün dili.

İndi uzaqdayam, çox uzaqdayam.
Hər şeydə darıxqan bir iz görünür.
Gəmirir beynimi yaddaşın səsi,
Xatirələr
Nilin şaqraq nəfəsi.

Fəsillər gəldi, keçdi, mələyimdən xəbər yox.
Qərib qaldı gedənlər yabançı otaqlara
Nilin bağrında ulduz, görəsən, kimi gözlər?
Kim baxıb kədərlənər, Nilin dalğalarına?

Xatırla, ey Nil, gör nə zamandır?
Bu qədər darıxar, insan kiminçün?
Səninlə ağladıq, səninlə güldük.
Birgə xatırladıq, sevgilinin üzünü.

Nə zaman xatırlasam, sevgili Nili.
Ürəyim səbəbsiz kədər mənzili.
Hər tərəf gördüyün quş xəyalları
Hər səs qulağımda bülbülün dili.

## NİLİN SƏSSİZLİYİ

I

Can yandırır
Nilin səssizliyi
Qələbəlik
Günəş altında.

II

Nil niyə danışmır?
Ətrafda heç kim yox.
Qaranlığın üzü
Hələ də yerdə sürünür.

## NİLİN İÇİNDƏN KEÇƏNLƏR

Sarı taksilər keçir Nilin içindən
Heç nə axa bilməz
Nilin əksinə.

Kimin həddinə Nil kimi
Keçmək Nilin içindən?

Mənim də içimdən keçir Nil
Qaranlıq yox, günəş rəngində.

Elə bil Qahirənin epitetlər quyusuna atılmış
Daş kimidir
Nilin adı.

## NİLİN YERİŞİ

Siz Allah, deyin
Kim var arxasında Nilin?
Belə dayanmadan sürünür
İllərlə

## HEYRƏT

Ey Nil
Çaşıram baxdıqca sənə
Yatağındasan hələ də.

## NİLİN TALEYİ

Hara gedir getsin
Əslində, heç yerə getmir.

## NİLİN HƏR ŞEYDƏN XƏBƏRİ VAR

Gecəydi
Ay yerində yox idi.
Gəminin işıqları qondu sahilə.
Nil oyandı
həmin an.

**Türkiyə türkcəsindən uyğunlaşdıran:**
**Orxan Həsəni**